# "Mövlud, zirvəsində dayan dağların"



Mövlud TEYMUR

### Hünərin var...

Dağ mahalı, Müdrü, Cülyan, Bağəli,
Hər üçü də bu dağların gözəli.
Bir az nazlı, bir az qəmzə, işvəli,
Hünərin var bu yerlərdə durma, get!

Heyifslənməz burda qalan bircə gün,
Gündüz kimi, səhər kimi gecə gün.
Ömür artar qala bilsən üççə gün,
Hünərin var bu dağlara varma, get!

Bahar vaxtı Babadağdan əsən yel,
Gözəllərə inan deyir, bağla bel.
Gözəllər də gərdan mina, saçlar sel,
Hünərin var bir çiçəyi dərmə, get!

Görən deyər cənnətməkan yerdəsən,
Əlin çatar ərzə-imkan yerdəsən.
Əhdə sadiq, ədəb-ərkan yerdəsən,
Hünərin var hər sakini sorma, get!

Dağ mahalı, Müdrü, Cülyan, Bağəli,
Hər üçü də bu dağların gözəli.
Bir az nazlı, bir az qəmzə, işvəli,
Hünərin var bu yerlərdə durma, get!..

2018

### Xoşumca olubdu...

Şuşanın dağları bizim dağlardı,
Möhtəşəm dağlardı, dözüm dağlardı.
Həmişə söhbətim, sözüm dağlardı,
Nağıla çevrilən, dastana dönən!

Sirdi, möcüzədi, sehirdi, tilsim,
Hər yalı-yamacı cığırım, izim.
Baharda yamyaşıl göldü, dənizim,
Xəzərə çevrilən, ümmana dönən!

Qoynunda dincəlir hər yay min insan,
Sənə əhsən deyir, afərin insan.
Təşəkkür eləyir hər vaxt, hər zaman,
Bu yurda çevrilən, ormana dönən!

Qayıtmaq istəmir bir də bu yerdən,
Çağlayan Arazdan, kükrəyən Kürdən,
Havası xoş məlhəm, həb dolu sirdən,
Sakinə çevrilən, mehmana dönən!

Mövlud, gözəlliyin mücəssəməsi,
Bu Xarı-bülbülün ətri, nəfəsi,
Xoşumca olubdu, könlümcə bəsi,
Diyara çevrilən, məkana dönən.

1985

### Payız

Payız şeirləri yazmaq istərəm,
Dumanda, çiskində azmaq istərəm,
Qayalar qaşından sızmaq istərəm,
Dərələr boyunca selə qarışıb!

Coşub-çağladıqca, dalğalandıqca,
Geniş asimana baxıb açıqca,
Payız günəşi tək axıb açıqca,
Əylənmək istərəm gölə qarışıb!

Sonalar, ördəklər qaqqıldaşanda,
Çaylar, sular axıb, aşıb-daşanda,
Soyuqlar öyünüb, lovğalaşanda,
Uçuram küləyə, yelə qarışıb!

Xəzəllər bürüyür sağı, solumu,
Kor duman bələyir cığır, yolumu,
Saxlamaq olmayır yağış, dolumu,
Ovcumu açıram çölə qarışıb!

Payız şeirləri yazmaq istərəm,
Bir qələm, bir kağız, varaq istərəm.
Sözümü nur, işıq, çıraq istərəm,
Payıza, xəzələ elə qarışıb!..

2017

### Bizim ellər

Babadağın ətrafında çox kənd var,
Neçə gözəl, mənzərəli bax, kənd var.
Girdiman var, Pirsaat var, çay-bənd var,
De hansını ürək sevmir, qəlb anmır?!

Alçalı pir, Pirqulu var, Qəleyburd,
Dəmirçi var, Səfalı var, Çuxuryurd.
Var Xeybəri, Günəşli, Babazarat,
De hansını ürək sevmir, qəlb anmır?!

Qurbangahı, Brovdalı, Gülyanı,
O tay-bu tay, o yan-bu yan, hər yanı.
Göz oxşayır, məst eləyir hər canı,
De hansını ürək sevmir, qəlb anmır?!

Sumağallı, Çayqovuşan, İstisu,
Topçu, Buynuz, Qalacıq xoş murazı.
Xanagahı nə bir kəsdən narazı,
De hansını ürək sevmir, qəlb anmır?!

Mövlud Teymur həqiqəti nə dandı,
Bizim ellər Babadağa baxandı,
Dalğalanıb çaylarıyla axandı,
De hansını ürək sevmir, qəlb anmır?!

2016

### Babadağa

Səcdəgah-qibləgah yeri olmusan,
Əzəldən ucadan uca, Babadağ.
Nurunla, eşqinlə qəlbə dolmusan,
Qorqud kimi ulu, qoca, Babadağ!

Səni ziyarətə gəlir el, elat,
Eşqinlə gül açır hər ömür, həyat.
Səndən söhbət salır dünya, kainat,
Az qalır seyrinə qaça, Babadağ!

Burda haya çatan Rəbbim səs salıb,
İqlimi ürəkdən mərəzi alıb.
Saf suyu bir dərman, bir həbim olub,
Həmdəmsən sən toxa, aca, Babadağ!

Mən sevən, sevilən ellər oğluyam,
Rəvan, xoş, şəkər, bal dillər oğluyam.
Mövludam, sərin meh, yellər oğluyam,
Könlüm istər səni quca, Babadağ!

2015

### Gördüm

Mən bizim dağların əzəmətini,
Fəhmini, gücünü həmişə gördüm.
Məni sair edən sehir, sirrini,
Çıxanda hər yala, hər döşə gördüm!

Məni əfsunladı bənövşə-pəri,
Əlini yellədi, dedi gəl bəri.
Çözüldü qəlbimdən min dərdi-səri,
Nahaqdan düşmədim bir işə, gəldim!

Gördüm hikmətini bizim dağların,
Gözümə döndüyüm gözüm dağların.
Olmuşam vurğunu özüm dağların,
Dörd yanı tala, düz, çöl, meşə gördüm!

Mən burda özümü gümrah sanıram,
Nə kədər, nə qüssə, nə ah sanıram.
Bir sultan, bir xaqan, bir şah sanıram,
Nə bir qul, nə nökər, nə köşə gördüm!

Mövlud, zirvəsində dayan dağların,
Ol neçə sirrindən əyan dağların.
Eşit, gör nə deyir səma tağların,
Çal-çağır, toy-büsat, tamaşa gördüm!

2017

Gündən-günə gözəlləşən kəndimiz,
Gələninə, gedəninə əl edir.
Görüşünə gəldikləri dağların,
Kölgəsində dincəlməyə yol edir!

Səxavətin olub açıq bir yolu,
Yağdırmayır göydə buludsa dolu.
Geniş qoynu qonaq-qarayla dolu,
Ehtiyaca, bir köməyə yol edir!

Baba dağa, Canalıya qalx deyir,
Yaşıl düzə, Göy talaya bax deyir,
Sularına qarış deyir, ax deyir,
Şaxsaxaya, Ənbərəyə yön edir!

Mövlud deyər, nə gözəldi kəndimiz,
Əvvəl-axır, həm əzəldi kəndimiz,
Şeir, nəğmə, şux qəzəldi kəndimiz,
Füzuliyə, Nizamiyə əl edir!..

2016

### A yurdum

Ata yurdum, səndən əziz de, nə var,
Çiçəyini qoxlamışam hər bahar.
Dağlarından aldım dözüm, güc, vüqar,
Səni andım olsam, harda, hayanda,
Sənsən mənə doğma, əziz cahanda!

Yaxınlarım, qohumlarım səndədi,
Naz-nemətim, dövlət-varım səndədi.
Küştü tutan çəmənzarım səndədi,
Ay uşaqlıq illərimin bəzəyi,
Ürəyimin, diləyimin gərəyi!

Əziz sandım hər qayanı, daşını,
Bələnini, gədiyini, qaşını,
Qoy bir öpüm o ağaran başını,
Ata yurdum, doğma yurdum, can yurdum,
İşıq yurdum, səhər yurdum, dan yurdum!

Adın gəzir söhbətimdə, sözümdə,
Çöllərinin əksi qalıb gözümdə,
İzlərinin izi qalıb izimdə,
Pozulmayan novrağına qurbanam,
Xoş gününə, xoş çağına qurbanam!

Ömrün yarı yaşındayam indi mən,
Zirvələrin qaşındayam indi mən,
Deməyin ki, qışındayam indi mən,
Yaz etmisən bu ömrü, a yurdum,
Səninkidir ünvan yeri, a yurdum!

2012

### Ocağımdı, pirimdi

Dağlarımı, daşlarımı soruşdum,
Dağlar naxış, daşlar bəzək olubdu.
Əhvalını, hallarını soruşdum,
Hər birisi mənə ürək olubdu!

Söz deyəndə sözümə səs verdilər,
Səbir, inam, dözümə səs verdilər.
Gerçəyimə, düzümə səs verdilər,
Xasiyyətdə yumşaq, ipək olubdu!

Dağlar, daşlar ocağımdı, pirimdi,
İgidimdi, ərənimdi, ərimdi.
Ayığımdı, çevikimdi, dirimdi,
Mənə tanrı, mənə mələk olubdu!

2012

### Bahar əldə, yay əldə

Gülalıda bir gül dərdim, qoxladım,
Ətirindən bihuş olub yuxladım.
Səhər erkən yalda cüyür oxladım,
Kaman əldə, nişan əldə, yay əldə!

Ocaq çatdım, közdə kabab bişirdim,
Ovçuları dağdan hayla düşürdüm.
Yedik, içdik, sanki coşqun bir kürdüm,
Bulaq əldə, şırnaq əldə, çay əldə!

Elə bil ki, bu dağların şahıydım,
Sevinciydim, kədəriydim, ahıydım.
Sanki burda götür-qoyda dahiydim.
Vərəq əldə, ağıl əldə, duy əldə!

Dağlar mənə dağ vüqarı vermişdi,
Şah palıdı, xan çinarı vermişdi.
Belə gözəl dostu-yarı vermişdi,
Şənlik əldə, büsat əldə, toy əldə!

Aman Allah, möcüzəymiş bu yerlər,
Ağlım tutmuş, gözüm duymuş bu yerlər.
Cürət, vüsal, qüdrət, səymiş bu yerlər,
Hər yaz əldə, bahar əldə, yay əldə!

2016

### ...Belə ruhda yaradıb

Düz danışdım düz dolandım, düz gəzdim,
Düz aldığım, düz verdiyim nəfəsdi.
Düz arzudu, düz diləkdi, həvəsdi,
Allah məni belə ruhda yaradıb!

Əqidəmə, məsləkimə arxayam,
Sanbalıma, öz çəkimə arxayam.
Həm boşuma, həm bərkimə arxayam,
Allah məni belə ruhda yaradıb!

Çəkinmədim haqsız sözdən, tənədən,
Düz yumruğum etdi onu çənədən.
Çətin bir də düra üzə yenidən,
Allah məni belə ruhda yaradıb!

Haqqa qulam, mən haqsıza ağayam,
Haqq yolunda coşğun seləm, bir çayam,
Bu dünyada mən də ayrı dünyayam,
Allah məni belə ruhda yaradıb!

2003

### Ay Vətən

Xəbərsizdir, ətərsizdir dünyadan,
Betərlərdən betərsizdir dünyadan.
Hünərsizdir, təpərsizdir dünyadan,
Tənbəlinə, süstünə bax, ay Vətən!

Ağı görür, qara deyir açıqca,
Kərgədana cüllüt deyir bu dayça.
Nə bostandı, nə dirrikdi, nə bağça,
Boranına, kidinə bax, ay Vətən!

Yuxuludu, elə bil ki, yatmayıb,
Həqiqətdən zərrə qədər dadmayıb.
Ələkçinin qılvərənə uyub,
Sirdaşına, dostuna bax, ay Vətən!

Hara gedir bu sifətlə, bu üzlə,
Yola getmir bu doğruyla, bu üzlə.
Özün salır kola-kosa, lil, selə,
Əyninə, üstünə bax, ay Vətən!

Bu acgödən haradan düşüb buraya,
Bu darlığa, aralığa, araya.
Bilirəm ki, gəlməz haya, haraya,
Forsuna bax, vidinə bax, ay Vətən.

### Qalıb

Sən dənizi yatmış bilmə,
Dəniz daim oyaq qalıb.
Gəmilərə, balıqlara
yol göstərən, oyaq qalıb.

Düşüb ulduz işığına,
Ayın sonsuz işığına.
Baxın dəniz işığına,
Görün necə parlaq qalıb.

Dəniz sudu, dəniz güldü,
Bir ürəkdi, bir könüldü;
Nəzin ötən şirin dildi,
Pıçıldayan dodaq qalıb.

*2022*